**2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində prezidentliyə qeydə alınmış namizəd Cəmil Poladxan oğlu Həsənlinin 95 saylı Tərtər seçki dairəsi dairə seçki komissiyasında məşvərətçi səs hüquqlu üzvü olmuş Xəqani Əsədulla oğlu Məmmədin 9 noyabr 2013-cü il tarixli 20 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində prezidentliyə qeydə alınmış namizəd Cəmil Poladxan oğlu Həsənlinin 95 saylı Tərtər seçki dairəsinin dairə seçki komissiyasında məşvərətçi səs hüquqlu üzvü olmuş Xəqani Əsədulla oğlu Məmməd Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək səsvermə günü 95 saylı Tərtər seçki dairəsinin bəzi seçki məntəqələrində yol verilmiş qanun pozuntuları ilə bağlı adıçəkilən seçki dairəsinin dairə seçki komissiyasına 10 və 11 oktyabr 2013-cü il tarixlərində göndərdiyi müraciətlərə komissiya tərəfindən cavab verilmədiyini bildirib qanunvericiliklə nəzərdə tutulmuş qaydada müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1-ci maddəsinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olduğundan icraata qəbul edilmiş, Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq iddia edilən qanun pozuntularının müəyyən olunması üçün zəruri olan sübut əhəmiyyəti kəsb edən mümkün materialların toplanılması üçün lazımi addımlar atılmış, müraciətin araşdırılmasına dair müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Araşdırma ilə müəyyən edilmişdir ki, prezidentliyə qeydə alınmış namizəd Cəmil Poladxan oğlu Həsənlinin 95 saylı Tərtər seçki dairəsinin dairə seçki komissiyasında məşvərətçi səs hüquqlu üzvü Xəqani Əsədulla oğlu Məmməd 11 və 12 oktyabr 2013-cü il tarixlərində şikayət ərizələri ilə adıçəkilən seçki dairəsinin dairə seçki komissiyasına müraciət edərək səsvermə günü 95 saylı Tərtər seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularının olduğunu iddia edərək müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Araşdırılma aparılan zaman müəyyən edilmişdir ki, Xəqani Əsədulla oğlu Məmmədin birinci şikayət ərizəsi 11 oktyabr, ikinci şikayət ərizəsi isə 12 oktyabr 2013-cü il tarixlərində “Azərpoçt” MMC-nin Tərtər poçt filialı vasitəsilə 95 saylı Tərtər seçki dairəsinin dairə seçki komissiyası sədrinin adına ünvanlanmışdır. Həmin şikayət ərizələri 18 oktyabr 2013-cü il tarixdə dairə seçki komissiyasına daxil olmuş, komissiya müraciətlərin ərizəçi tərəfindən poçt xidmətinə verilməsi tarixini nəzərə almamış, müraciətin şikayətvermə müddəti ötürülməklə daxil olduğunu əsas gətirərək təmin etməmiş və bu barədə 21 oktyabr 2013-cü il tarixli qərar qəbul etmişdir.

Bununla da dairə seçki komissiyası tərəfindən qərarın qəbul edilməsi, əsaslandırılması və tərtib edilməsi ilə əlaqədar prosessual pozuntuya yol verilməsi müəyyən edilmişdir. Ona görə də 95 saylı Tərtər seçki dairəsi dairə seçki komissiyasının qərarı Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olmadığından ləğv edilməlidir.

Şikayətçinin xahişi nəzərə alınaraq, onun müraciəti səsvermə günü 95 saylı Tərtər seçki dairəsinin bəzi seçki məntəqələrində iddia edilən qanun pozuntuları ilə bağlı hissədə mahiyyəti üzrə araşdırılmaya qəbul edilmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü 95 saylı Tərtər seçki dairəsinin bəzi seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı ərizəçinin dairə seçki komissiyasına daxil olmuş müraciətlərinə adıçəkilən dairənin bir neçə seçki məntəqəsində müşahidə aparan şəxslər tərəfindən tərtib edilməsi, bu və ya digər pozuntusunun baş verməsinin təsdiq edilməsi iddia edilən aktların kserosurətləri əlavə edilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası hesab edir ki, araşdırma nəticəsində pozuntuların rəsmiləşdirildiyi iddia edilən aktların əsli deyil, heç bir sübut əhəmiyyəti daşımayan kserosurətləri müraciətə əlavə edildiyindən iddia edilən halların ən azı nədən ibarət olduğunu belə

müəyyən etmək mümkün olmadığından və əlavə heç bir digər təsdiqedici sənəd və materiallar təqdim edilmədiyindən müraciət əsassız hesab edilərək təmin olunmamalıdır.

Belə ki, müraciətin araşdırılması prosesində ərizəçi ilə əlaqə yaradılmış, müraciətə əlavə olunmuş kserosurətlər heç bir hüquqi nəticə doğurmadığından, ondan, mövcud olduğu təqdirdə, həmin aktların əsillərinin təqdim edilməsi xahiş edilmiş, müraciətdə qeyd edilən hallarla əlaqədar əlavə sübutlara malikdirsə, ona həmin sübutları təqdim etmək təklif edilmişdir. Lakin ərizəçi tərəfindən araşdırmaya əlavə olaraq heç bir sübut və material təqdim edilməmişdir.

Qeyd edilməsi zəruridir ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 19 oktyabr 2013-cü il qərarı ilə 2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələri təsdiq və rəsmən elan edilmişdir.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 2.6-cı, 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 41-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2 ,4, 6 və 7-ci bəndlərinə əsasən Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası **q ə r a r a  a l ı r :**

1. 2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində prezidentliyə qeydə alınmış namizəd Cəmil Poladxan oğlu Həsənlinin 95 saylı Tərtər seçki dairəsi dairə seçki komissiyasında məşvərətçi səs hüquqlu üzvü olmuş Xəqani Əsədulla oğlu Məmmədin 9 noyabr 2013-cü il tarixli 20 saylı müraciəti qismən təmin olunsun, 95 saylı Tərtər seçki dairəsi dairə seçki komissiyasının 21 oktyabr 2013-cü il tarixli, 10/77 saylı qərarı qanunvericiliyin tələblərinə uyğun olmadığından ləğv edilsin.
2. Müraciət 95 saylı Tərtər seçki dairəsinin bəzi seçki məntəqələrində yol verilmiş qanun pozuntuları hissəsində əsassız olduğundan təmin edilməsin.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Arifə Muxtarova

Katib Mikayıl Rəhimov